# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ
# EDUMAN - ELEKTRON UNİVERSİTET
## TƏLİMAT 1.

**MÜƏLLİM KABİNETİ ÜZRƏ İSTİFADƏÇİ TƏLİMATI**

# MÜNDƏRİCAT

**GİRİŞ ...... 3**
Mərkəzləşdirilmiş Təhsil İdarəetmə (bundan sonra Eduman) Sistemi...... 4
Eduman sistemində mövcud olan Modullar...... 6
Təşkilatı struktur...... 8
Tələbələr modulu ...... 9
Əməkdaşlar modulu...... 10
Dərs cədvəli modulu ...... 11
Elektron jurnal modulu ...... 12
EDUMAN proqram təminatından istifadə qaydaları: Fakültələr üzrə istifadəçilər üçün Sistemə giriş ...... 13
EDUMAN proqram təminatından istifadə qaydaları: Professor – müəllim heyyəti üçün şəxsi kabinetə giriş ...... 14
Bölmələr üzrə istifadəçilər ...... 42

## GİRİŞ

Biliklərə əsaslanmış iqtisadiyyatın təşəkkül tapdığı şəraitdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir. Tam əminliklə demək olar ki, bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti, ilk növbədə, onların İKT-dən səmərəli istifadəsi ilə müəyyənləşməklə formalaşır. İKT-nin təhsildə tətbiqi və inteqrasiyası Azərbaycan vətəndaşlarının müasir biliklərə və bacarıqlara malik olan yeni nəslinin formalaşmasına birbaşa təsir edən yüksək mahiyyətli məsələdir.

# Mərkəzləşdirilmiş Təhsil İdarəetmə Sistemi

"Mərkəzləşdirilmiş Təhsil İdarəetmə (bundan sonra Eduman) Sistemi"ndə təhsil müəssisəsinin strukturu, müəssisədə təhsil alan tələbə, məzun və işləyən işçi heyəti, qruplar və fənlər, universitetdə mövcud olan tədris planları, dərs cədvəli və təqvim planları haqqında bütün məlumatlar saxlanılır. Burada müəssisə inzibatçıları sistemdə olan bu məlumatları idarə edə bilər. Sistemin əsas məqsədi – ali təhsil müəssisəsində olan bütün məlumatları və müəssisə daxilində olan bir çox idarəetmə proseslərini vahid bir bazada saxlamaqdır.

# EDUMAN proqram təminatının universitetdə tətbiqinin üstünlükləri

- ✓ Elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi
- ✓ Elektron təhsil (e-Learning) resursları bazasının yaradılması və tədris prosesinə inteqrasiyası
- ✓ Təhsil sistemində idarəetmənin informasiyalaşdırılması
- ✓ Yeni metod və texnologiyalar vasitəsilə pedaqoji heyyətin hazırlanma və ixtisasartırma sisteminin təkmilləşdirilməsi
- ✓ Tələbələrin məlumat əldə etməsini asanlaşdırmaq məqsədi ilə elektron vasitələrin imkanlarından istifadə etmək
- ✓ Tələbələrin attestasiyasına dair elektron məlumat bazasını yaratmaq, yeniləmək və ondan səmərəli istifadə etmək
- ✓ Universitetdə tədris planlarının, tədris materiallarının, təqvim planlarının (sillabusların), dərs cədvəllərinin elektronlaşdırılması professor-müəllim heyyətinin və tələbələrin elektron qaydada məlumatlandırılması

# Eduman sistemində mövcud olan Modullar

- Tələbələr modulu
- Arxiv modulu
- Əməkdaşlar modulu
- Təşkilati struktur
- Fənn üzrə qrup modulu
- Fənn üzrə yarımqrup modulu
- Akademik qrup modulu
- Fənn kataloqu modulu
- Akademik təqvim modulu
- Təqvim planı modulu
- Tədris planı modulu

# Eduman sistemində mövcud olan Modullar

- Dərs cədvəli modulu
- Elektron jurnal modulu
- İstifadəçilər modulu
- Soraqça modulu
- Axtarış modulu
- Hesabat modulu
- Qaydalar modulu
- Xəbərlər modulu
- Elanlar
- Sənəd şablonları modulu

# Təşkilatı struktur

"Təhsil İdarəetmə Sistemi" nin **"Təşkilati struktur"** menyusunda iyerarxiya şəklində təhsil müəssisəsinə tabe olan qurumlar, fakültələr, şöbələr və onların daxilində olan kafedralar əks olun



# Tələbələr modulu

“Eduman Sistemi”nin **“Tələbələr”** menyusunda universitetdə təhsil alan bütün tələbələrin siyahısı göstərilir.

Tələbələr

Yeni | Redaktə | Sil | Excel | PDF | Çap

Fakültə: -- Hamısı --
İxtisas: -- Seçin --
İxtisaslaşma: -- Seçin --

| № | Soyadı, Adı, Atasının adı | Cinsi | Fakültə | Qəbul ili | Təhsil forması | Fin | Istifadəçi adı | Şifrə |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | testujk fvgbhjnkm dfghjkçl | Kişi | Filologiya fakültəsi | 2023 | Əyani | 6789043 | f.testujk1 | 7601 |
| 2 | Test fransız dili Test fransız dili Test fran | Qadın | Xarici dillər fakültəsi | 2023 | Əyani | 7890123 | t.testfransizdili1 | 9781 |
| 3 | y1 y1 y1 | Kişi | Filologiya fakültəsi | 2019 | Əyani | 5678900 | y.y11 | 7469 |
| 4 | Telebe test10 Telebe test10 Telebe test | Qadın | İqtisadiyyat və idarəetmə fakültəsi | 2023 | Əyani | 5671239 | t.telebetest101 | 3074 |
| 5 | d d d | Kişi | Pedaqoji fakültə | 2019 | Əyani | CVBNXZ9 | d.d1 | 5632 |
| 6 | Tələbə test Tələbə test Tələbə test | Qadın | Biologiya-kimya fakültəsi | 2023 | Əyani | QAZXS31 | t.talabatest1 | 7179 |
| 7 | Tələbə for test Tələbə for test Tələbə fc | Qadın | Fizika və texniki fənnlər fakültəsi | 2019 | Əyani | TGBNHY7 | t.talabafortest1 | 7931 |
| 8 | Tələbə 2 Tələbə 2 Tələbə 2 | Qadın | Biologiya-kimya fakültəsi | 2023 | Əyani | EDCVFR1 | t.talaba23 | 9242 |
| 9 | telebe fiziki telebe fiziki telebe fiziki | Qadın | Pedaqoji fakültə | 2019 | Əyani | 234567U | t.telebefiziki1 | 3994 |

# Əməkdaşlar modulu

"Eduman Sistemi"nin **"Əməkdaşlar"** menyusunda müəssisədə çalışan bütün əməkdaşların siyahısı göstərilir.


Əməkdaşlar

Yeni Redaktə Sil Excel PDF Çap Axtarış Soraqça

Status: Cari
Müəssisə: -- Hamısı --

| № | Soyadı, Adı, Atasının adı | Cinsi | Doğum tarixi | Müəssisəsi | Vəzifəsi | İstifadəçi adı |
|---|---|---|---|---|---|---|
| 1 | Test Tyutor 1 Test Tyutor 1 Test Tyutor 1 | Kişi | 20-10-2000 | Fizika kafedrası | Tyutor | t.testtyutor1 |
| 2 | tes tes tes | | | Gəncə Dövlət Universiteti | Dekan | t.tes8 |
| 3 | Əməkdash Əməkdash Əməkdash | | | Sosial fənlər kafedrası | Müəllim | a.amakdash |
| 4 | İlk müəllim İlk müəllim İlk müəllim | | | Botanika kafedrası | Müəllim | i.ilkmuallim |
| 5 | müəllim müəllim müəllim | | | Botanika kafedrası | Müəllim | m.muallim8 |
| 6 | Müəllim coğrafiya c c | | | Coğrafiya kafedrası | Müəllim | c.muallimcografiya |
| 7 | Yeni test Yeni test Yeni test | | | Gəncə Dövlət Universiteti | Rektor | y.yenitest1 |
| 8 | müəllim t m müəllim t | | | Praktik xarici dillər kafedrası | Müəllim | m.muallimtest1 |
| 9 | Müəllim test Müəllim test Müəllim test | | | Botanika kafedrası | Müəllim | m.muallimtest |

# Dərs cədvəli modulu

“Eduman Sistemi”nin **“Dərs cədvəli”** menyusunda müəssisənin dərs cədvəli əlavə olunur. Sistemdə 3 tip dərs cədvəli mövcuddur: Fakültə üzrə, Müəllim üzrə, Tələbə üzrə. Sistem istifadəçisi yalnız Fakültə üzrə dərs cədvəlini əlavə edir. Fakültə üzrə dərs cədvəlini yaratdıqdan sonra avtomatik şəkildə Müəllim üzrə dərs cədvəli Müəllim kabinetində, Tələbə üzrə dərs cədvəli isə Tələbənin şəxsi kabinetində göstərilir.

| № | Dərs tipi | Qrup | Müəllim | Gün | Tarix | Saat | Bina | Auditori | Həftə tipi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Mühazirə | qramatikaa | Əməkdash Əməkdash | 5 | 13.10.2023-29.11. | 09:40 - 10:40 | Test 2 | 789 | Normal Hə |
| 2 | Laboratoriya | turzim-lab | turizm m turizm m | 1 | 02.10.2023-29.10. | 12:00 - 13:00 | Test 1 | 3 | Normal Hə |
| 3 | Seminar | turzim | turizm m turizm m | 1 | 02.10.2023-22.11. | 13:10 - 14:10 | Test 1 | 5 | Normal Hə |
| 4 | Seminar | turzim | turizm m turizm m | 1 | 02.10.2023-31.10. | 08:30 - 09:30 | Test 1 | 1 | Normal Hə |
| 5 | Seminar | turzim | turizm m turizm m | 1 | 02.10.2023-23.11. | 10:50 - 11:50 | Test 1 | 5 | Normal Hə |
| 6 | Seminar | dünya ədəbiyyatı-2 | Əməkdash Əməkdash | 1 | 02.10.2023-31.10. | 16:20 - 17:20 | Test 1 | 1 | Normal Hə |
| 7 | Mühazirə | Dünya ədəbiyyatı-10 | Əməkdash Əməkdash | 1 | 02.10.2023-31.10. | 10:00 - 11:30 | Test 1 | 3 | Normal Hə |
| 8 | Seminar | sosial-2709 | Əməkdash Əməkdash | 1 | 02.10.2023-24.10. | 08:30 - 09:30 | Test 2 | 5678 | Normal Hə |

# Elektron jurnal modulu

“Eduman Sistemi”nin **“Jurnal”** menyusunda müəssisənin bütün jurnalları saxlanılır. İstifadəçi ona lazım olan tədris ili və semestr üzrə olan jurnallara istənilən zaman baxa bilər.

**Müəllim ancaq Şəxsi kabinetində Elektron jurnal** menyusuna basaraq öz jurnalına keçə bilər.


Elektron jurnal

İmtahan qiymətləri

Tədris ili: 2023 - 2024 | Semestr: I semestr | Müəllim: İlk müəllim İlk müəllim | Dərs tipi: Mühazirə

| № | Qruplar | Dərs tipi | Tələbə sayı |
|---|---|---|---|
| 1 | anatomi-x | Mühazirə | 1 |
| 2 | anatomiya xcv | Mühazirə | 1 |
| 3 | PSIXOLOGIYA FENNI 2 | Mühazirə | 3 |
| 4 | tarix-abc | Mühazirə | 1 |
| 5 | ümumi tariox-17:30 | Mühazirə | 1 |
| 6 | incesenet9 | Mühazirə | 1 |

**Fakültələr üzrə istifadəçilər üçün**

**Sistemə giriş:**

“ Eduman Sistemi” nə daxil olmaq üçün brauzerdə

[http://eduman.gdu.edu.az](http://eduman.gdu.edu.az)

ünvanını daxil etmək lazımdır. Açılmış pəncərədə istifadəçi ona verilmiş xüsusi istifadəçi adı və şifrəsini daxil etməlidir. İstifadəçi sistemə daxil olmaq üçün öz istifadəçi adı və şifrəni daxil etdikdən sonra “Daxil ol” düyməsini basmalıdır.



# Professor – müəllim heyyəti üçün şəxsi kabinetə giriş:

“Eduman Sistemi”nin  Müəllim Şəxsi kabinetinə daxil olmaq üçün brauzerdə

**http://muallim.gdu.edu.az**

ünvanını daxil etmək lazımdır. Açılmış pəncərədə istifadəçi müəssisə tərəfindən ona verilmiş xüsusi istifadəçi adı və şifrəsini daxil etməlidir.



Müəllim sistemə daxil olmaq üçün öz istifadəçi adı və şifrəsini daxil etdikdən sonra **“Daxil ol”** düyməsini basmalıdır. Müəllim Şəxsi kabinetə daxil olmaq üçün ona verilmiş şifrəni istənilən zaman dəyişə bilər. Bunun üçün məlumat pəncərəsində olan Şifrəni dəyiş üzərinə basmaq lazımdır.




**“Şifrə”** sahəsində müəllim əl ilə istənilən şifrəni daxil edə bilər. **“Şifrəni dəyiş”** üzərinə basaraq müəllim şifrəni avtomatik şəkildə generasiya edə bilər.

Daxil edilmiş şifrəni yadda saxlamaq üçün sonda olan Şifrəni dəyiş düyməsini basmaq lazımdır.

Müəllim Şəxsi kabinetə daxil olmaq üçün ona verilmiş şifrəni unudubsa, həmin şifrəni universitetin müvafiq şöbəsinə müraciət edərək yeni şifrəsini əldə edə bilər.

# Müəllimlər üçün hazırlanmış Şəxsi kabinet

“Eduman Sistemi”nin Müəllimlər üçün hazırlanmış Şəxsi kabinetdə müəllimin dərs cədvəli, təqvim planı, dərs dediyi fənn üzrə qrupları, universitet daxilində olan qayda, bildiriş və xəbərlər, tədris materialları, sərbəst işləri, təqvim və yaratdığı kurslar saxlanılır. Şəxsi kabinet bir neçə moduldan ibarətdir:

- Dərs cədvəli
- Təqvim planı
- Fənn üzrə qruplar
- Fənn üzrə yarımqrup
- Tədris materialları
- Sərbəst iş-Mövzular
- Sərbəst işlər
- Elektron Jurnal
- Akademik təqvim
- Qaydalar
- Əlaqə
- Xəbərlər

Menyu paneli:



Şəxsi kabinetin **"Dərs cədvəli"** bölməsində müəllim öz dərs cədvəlinə baxa bilər.

Dərs cədvəli

Export

| Gün / Saat | I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|---|
| 08:30-09:30 | Riyaziyyat test<br>Otaq:101 ( )<br>Normal Həftə<br>Mühazirə<br>**29.07.2023 - 15.02.2024** | Mikroprosessor<br>Otaq:101 ( )<br>Normal Həftə<br>Mühazirə<br>**15.09.2023 - 01.02.2024** | | Fəlsəfə<br>Otaq:101 ( )<br>Normal Həftə<br>Mühazirə<br>**28.07.2023 - 05.02.2024** | | | |
| 09:40-10:40 | | | | 4 Kompı-Region<br>Region<br>Otaq:1011 ( )<br>Normal Həftə<br>Seminar<br>**03.08.2023 - 31.08.2023** | | | |

Dərs cədvəlinin yuxarı hissəsində cari həftənin alt və ya üst olması göstərilir.
Burada əks olunan dərs cədvəlini müəllim ixrac edə bilər. Bunun üçün dərs cədvəlinin yuxarı sağ hissəsində olan




düyməsini basmaq lazımdır.

Şəxsi kabinetin **"Təqvim planı"** bölməsində müəllim özünün təqvim planına baxa bilər.

Fənn ---Fənni seçin---

Dərsin növü ---Dərs növünü seçir

Ixtisas ---Ixtisası seçin---

| № | Kafedra | Fənn | Dərsin növü | Dərsin saatı | Mövzu |
|---|---|---|---|---|---|
| 1 | Alman dilinin fonetikası kafedrası | 1 Riyaziyyat test / Azərbaycan dili | Mühazirə | 1 | 07 movzu |
| 2 | Alman dilinin fonetikası kafedrası | 1 Riyaziyyat test / Azərbaycan dili | Mühazirə | 1 | 1 movzu |
| 3 | Alman dilinin fonetikası kafedrası | 1 Riyaziyyat test / Azərbaycan dili | Mühazirə | 1 | 2 movzu |

Məlumat 1 - 3 / 3

Səhifənin yuxarı hissəsindəki xüsusi süzgəc vasitəsilə müəllim fənn və dərs növünü seçərək lazımi məlumatı görə bilər.

Kabinetin **"Fənn üzrə qruplar"** bölməsində müəllimin dərs dediyi fənn qruplarının siyahısı göstərilir.

Fənn üzrə qruplar

| № | Fənn üzrə qrupun adı | Tələbə sayı | Tarix |
|---|---|---|---|
| 1 | 4 Kompı-Region | 3 | 27/07/2023 |

Məlumat 1 - 1 / 1

Müəllim **“Fənn üzrə qruplar”** siyahıdan istənilən qrupu seçib üzərinə basdıqda açılan pəncərədə həmin qrup haqqında məlumata və bu qrupda olan tələbələrin siyahısına baxa bilər.



Müəllim Kabinetinin **“Tədris materialları”** menyusunda müəllim keçdiyi fənlərin mühazirə, seminar, təqdimat, test, sillabus və digər materiallarını yükləyə bilər. Nəticədə həmin fənni keçən tələbələr öz kabinetinə daxil olaraq bu materialları əldə edə bilərlər.



Müəllim tədris materiallarını yükləmək üçün ***Fənn*** süzgəcində ona lazım olan fənni seçməlidir. Burada yalnız müəllimin dərs dediyi fənlər göstərilir. Nəticədə bu fənnin bütün mövzuları siyahıda əks olunur.


Tədris materialları

Fənn FENN _FENN

sillabus

| № | Mövzu | Mühazirə | Təqdimat | Test | Seminar | Digər |
|---|---|---|---|---|---|---|
| 1 | Mövzu 1 | ● | ● | ● | ● | ● |
| 2 | Mövzu 2 | ● | ● | ● | ● | ● |

Məlumat 1 - 2 dən 2

● - mövzu ilə əlaqəli materialların yükləndiyini göstərir.

● - mövzu ilə əlaqəli materialların yüklənmədiyini göstərir.

Müəllim ona lazım olan mövzu adı üzərinə basdıqda açılan pəncərədə bütün materialları yükləyə biləcək.

**Seç** düyməsi vasitəsilə müəllim faylı yükləyə bilər. düyməsi ilə müəllim yüklədiyi faylı silə bilər. düyməsi ilə müəllim yüklədiyi faylı sonradan özünə də yükləyə bilər.

Materialları yüklədikdən sonra müəllim pəncərənin sonunda olan **Tətbiq et** düyməsini basmaqla yüklədiyi faylları yadda saxlaya bilər və bu materiallar birbaşa tələbə kabinetinə göndəriləcək.



Müəllim dərs dediyi fənnin sillabusunu yükləmək üçün ***Fənn*** süzgəcində ona lazım olan fənni seçdikdən sonra **Sillabus** düyməsi üzərinə basdıqda seçdiyi fənnin sillabusunu yükləyə bilər.




Müəllim **Köçürülmə** düyməsi üzərinə basdıqda seçdiyi fənn aid materialları cari tədris ilindən seçilmiş tədris ilinə yükləyə bilər.



Müəllim kabinetinin **Sərbəst işlər** menyusunda müəllim tələbələrin göndərdiyi sərbəst işlərə baxa və qiymətləndirə bilər.



Səhifənin yuxarı hissəsində olan süzgəc sahələrində müəllim tədris ili, tədris semestrı, ona lazım olan fənn və fənn üzrə qrupu seçməklə siyahıda seçilmiş qrupun tələbələrini və sərbəst işlərin mövzularını, hər sərbəst işə görə maksimal balı, tələbənin sərbəst işi göndərib-göndərmədiyini, son qiymətləndirmə tarixini, göndərilmə tarixini və qiymətləndirmə tarixini görə biləcək. Sərbəst işlərin mövzuları Elektron jurnala daxil edilir və burada əks olunur.

| № | Tələbənin S.A.A | Mövzu | Maks. bal | Nəticə | Son qiymətləndirmə tarixi | Göndərilmə tarixi | Qiymətləndirmə tarixi |
|---|---|---|---|---|---|---|---|
| 1 | Abdullayev Fuad Rüfət | Test 12 | 1 | Göndərilib | 06.03.2020 | 12.02.2020 12:20:23 | |
| 2 | Abdullayev Fuad Rüfət | dcvfb | 1 | 1 | 16.02.2020 | 07.02.2020 16:05:08 | 07.02.2020 16:43:01 |
| 3 | Abdullayev Fuad Rüfət | ABDGSG | 1 | 1 | 16.02.2020 | 04.02.2020 10:14:56 | 04.02.2020 10:22:18 |

Məlumat 1 - 3 dən 3

Tələbələrin göndərdiyi sərbəst işlərə baxış

Müəllim tələbələrin göndərdiyi işə baxmaq üçün kabinetin **Sərbəst işlər** menyusuna keçməli və səhifənin yuxarı hissəsində olan süzgəclərdə ona lazım olan məlumatı seçməlidir.




- **Tədris ili –** cari tədris ili avtomatik göstərilir. Müəllim əvvəlki tədris illərinə aid olan mövzulara da baxa bilər.
- **Tədris semestri –** aşağıya açılan siyahıdan müəllim ona lazım olan semestrı seçməlidir. Müəllim əvvəlki semestrlara aid olan mövzulara da baxa bilər.
- **Fənn –** aşağıya açılan siyahıdan müəllim ona lazım olan fənni seçməlidir. Burada yalnız müəllimin dərs dediyi fənlər göstərilir.
- **Fənn üzrə qrup –** aşağıya açılan siyahıdan müəllim ona lazım olan qrupu seçməlidir. Burada yalnız müəllimin dərs dediyi və seçilmiş fənn ilə əlaqəli olan qruplar göstərilir.
- **Mövzu –** aşağıya açılan siyahıdan müəllim *hamısı* seçməklə bütün mövzuları və ya ona lazım olan mövzunu seçə bilər. Mövzular Elektron jurnalın Sərbəst işlər bölməsindən götürülür.

**Status-** aşağıya açılan siyahıdan müəllim qiymətləndirilənlər,baxılanlar və göndərilənləri seçə bilər.

| № | Tələbənin S.A.A | Mövzu | Maks. bal | Nəticə | Son qiymətləndirmə tarixi | Göndərilmə tarixi | Qiymətləndirmə tarixi |
|---|---|---|---|---|---|---|---|
| 1 | Abdullayev Fuad Rüfət | Test 12 | 1 | Göndərilib | 06.03.2020 | 12.02.2020 12:20:23 | |
| 2 | Abdullayev Fuad Rüfət | dcvfb | 1 | 1 | 16.02.2020 | 07.02.2020 16:05:08 | 07.02.2020 16:43:01 |
| 3 | Abdullayev Fuad Rüfət | ABDGSG | 1 | 1 | 16.02.2020 | 04.02.2020 10:14:56 | 04.02.2020 10:22:18 |

Məlumat 1 - 3 dən 3

**Nəticə** sütununda tələbənin sərbəst işi göndərməsi və ya artıq aldığı balı göstərilir.

Müəllim ***tələbənin göndərdiyi cavab faylına baxmaq üçün*** lazım olan tələbə adının üzərinə basmalıdır.

- **Mövzu –** sərbəst işin mövzusu göstərilir.
- **Fayl –** tələbənin göndərdiyi fayl göstərilir. düyməsini basmaqla müəllim faylı açıb baxa və ya özünə yükləyə bilər.
- **Balın sayı –** aşağıya açılan siyahıdan müəllim tələbənin balını seçə bilər.
- **Şərh –** müəllimin yazdığı qeyd burada göstərilir.




**Təsdiq et** düyməsinə basmaqla müəllim tələbənin göndərdiyi işi qəbul edir və sərbəst işə görə daxil etdiyi bal avtomatik olaraq Elektron jurnala ötürülür.

# Müəllimlər üçün hazırlanmış Şəxsi kabinet

Müəllim kabinetin **Elektron jurnal** menyusuna basaraq öz jurnalına keçə bilər.

Distant jurnal

Tədris ili: 2023 - 2024

Tədris semestri: I semestr

Dərsin növü: Mühazirə

| № | Qrupun adı | Dərsin növü | Tələbə sayı |
|---|---|---|---|
| 1 | 4 Kompı-Region | Mühazirə | 3 |
| 2 | 652.mikro | Mühazirə | 3 |
| 3 | 652.test | Mühazirə | 2 |
| 4 | Mülki-Yeniqrup.28 | Mühazirə | 6 |
| 5 | yeni ad | Mühazirə | 3 |

Məlumat 1 - 5 / 5

- **Tədris ili –** burada müəllim ona lazım olan tədris ilini seçə bilər.
- **Tədris semestri –** burada müəllim ona lazım olan semestrı seçə bilər.
- **Dərs tipi -** burada müəllim ona lazım olan dərs tipini seçə bilər.

Göstərilmiş süzgəclərdə müəllim lazım olan məlumatı seçdikdən sonra siyahıdan lazım olan fənn üzrə qrupu seçib üzərinə basmalıdır.

Qiymətləndirmə

Aktivləşdir

| № | Tarix | Müəllim | Mövzunun adı | Aktivləşdirmə tarixi |
|---|---|---|---|---|
| 1 | 03-AUG-23 10:50 - 11:50 | Test 1 Test 1 | | 03-AUG-23 |

Məlumat 1 - 1 / 1

«

| № | Tələbə | 03/08/2023 10:50 - 11:50 03-AUG-23 |
|---|---|---|
| 1 | Test 123 Test 123 Test 123 | i/e |
| 2 | Test 124 Test 124 Test 124 | q/b |
| 3 | Test 125 Test 125 Test 125 | i/e |

Məlumat 1 - 3 / 3

**Elektron jurnal** 3 hissədən ibarətdir:

- Qiymətləndirmə
- Sərbəst iş
- Yekun qiymət

***Qiymətləndirmə*** bölməsində müəllim tələbələrin seminar üzrə balları və eləcə də mühazirədə davamiyyəti qeydə alınır. Səhifənin sağ hissəsində tarixlər üzrə mövzular, mövzunu keçən müəllimin adı və elektron jurnalın aktivləşdirmə tarixi göstərilir. Mövzular avtomatik şəkildə sistemin **Təqvim planı** bölməsindən götürülür. Səhifənin sol hissəsində isə jurnal əks olunur. Səhifənin sol hissəsində yuxarıdan aşağı seçilmiş qrupun tələbələrinin siyahısı, yuxarı hissəsində isə soldan sağa tarixlər və dərsin saatı göstərilir. Bu tarixlər dərs cədvəlindən götürülür.

# Müəllimlər üçün hazırlanmış Şəxsi kabinet

E-jurnalda 3 növ qiymətləndirmə növü var:

- Qayıb (q/b) – mühazirə, məşğələ
- İştirak edir (i/e) - mühazirə, məşğələ
- Qiymət – məşğələ

| << № | Tarix | Müəllim | Mövzunun adı | Aktivləşdirmə tarixi |
|---|---|---|---|---|
| 1 | 29-01-20 15:25 - 17:00 | Test Əməkdaş | ADSFS | 2020-01-29 |

| № | Tələbə | 29/01/2020 15:25 - 17:00 |
|---|---|---|
| 1 | Abdullayeva Pərnaz Famil | 4 |
| 2 | Ağamalıyev Ağaxan Eldəniz | 8 |
| 3 | Ağayev Elcan Şadman | i/e |

Müəllim Qiymətləndirmə bölməsində tələbələrə qiymət və ya davamiyyətini daxil etmək üçün yuxarı hissədə olan Aktivləşdir düyməsini basmalıdır.

## Aktivləşdirmə




Açılan pəncərədə lazım olan tarixi seçib **Tətbiq et** düyməsini basmalıdır. Nəticədə Qiymətləndirmə bölməsində həmin tarix olan sütun aktivləşəcək və müəllim dərs tipindən asılı olaraq qiymət, i.e və ya q daxil edə bilər.

***<u>Sərbəst iş -</u>*** E-jurnalın bu bölməsində tələbələrin sərbəst işləri üzrə balları göstərilir. Müəllim jurnalın bu səhifəsində yalnız sərbəst işlərin mövzularını daxil edir. Nəticədə həmin mövzuların adı hər bir tələbənin şəxsi kabinetində göstərilir. Tələbə şəxsi kabinetin müvafiq menyusunda hazırladığı sərbəst işləri fayl şəklindı yükləyərək müəllimin şəxsi kabinetinə göndərir. Müəllim tələbənin göndərdiyi sərbəst işi kabinetində yoxlayır və elə ordaca qiymətini daxil edir. Daxil edilmiş ballar avtomatik olaraq jurnalın bu bölməsində göstərilir.




| № | Mövzunun adı | Tarix | Bal | Müəllim |
|---|---|---|---|---|
| 1 | yeni | 21.09.2023-29.09.2023 | 20 | Test 1 Test 1 Test 1 |
| 2 | Test mövzu | 03.08.2023-31.08.2023 | 20 | Test 1 Test 1 Test 1 |

| № | Möv | Tələbə | Qiymət/N | Göndərilmə tarixi | Qiymətləndirmə tarixi |
|---|---|---|---|---|---|

Mövzunu əlavə etmək üçün müəllim pəncərənin aşağı hissəsində olan **+** düyməsini basmalıdır.




- **Tələbə** – Süzgəcdə seçilmiş qrupun tələbələri əks olunur.
- **Mövzu** – mövzunun adı əl ilə daxil edilir.
- **Başlama tarixi** – sərbəst işin başlama tarixi təqvim vasitəsilə göstərilir. Burada göstərilən tarixdən etibarən tələbə şəxsi kabinetindən mövzunu müəllimə göndərə bilər.
- **Bitmə tarixi** – sərbəst işin bitmə tarixi təqvim vasitəsilə göstərilir. Burada göstərilən tarixdən sonra tələbə şəxsi kabinetindən mövzunu müəllimə göndərə bilməz.
- **Sərbəst işin növü** – Sərbəst işin növü seçilir(Qrup və ya fərdi).




düyməsini basaraq müəllim bu səhifəni Excel formatına ixrac edə bilər.

***Yekun qiymət -*** E-jurnalın bu bölməsində tələbələrin semestr üzrə yekun nəticəsi əks olunur.




- **Davamiyyət –** tələbənin semestr üzrə davamiyyət balı avtomatik hesablanaraq burada əks olunur.
- **Seminarın orta balı –** tələbənin semestr ərzində seminarın orta balı avtomatik hesablanaraq burada əks olunur.
- **Sərbəst iş –** tələbənin semestr ərzində sərbəst işləri üzrə balı avtomatik hesablanaraq burada əks olunur.
- **İmtahana qədər balı –** tələbənin semestr ərzində imtahana qədər olan balı avtomatik hesablanaraq burada əks olunur.
- **Buraxılan saatlar –** tələbənin semestr ərzində buraxdığı dərs saatları avtomatik hesablanaraq burada əks olunur.
- **Auditoriya saatları –** fənnin auditoriya saatları avtomatik olaraq göstərilir.
- **Qeyd –** tələbə imtahana buraxılmırsa, burada səbəbi avtomatik şəkildə əks olunur.



düyməsini basaraq müəllim bu səhifəni Excel formatına ixrac edə bilər.

Müəllim kabinetinin **Sərbəst işlər** menyusunda müəllim tələbələrə **sərbəst işləri göndərə bilər**

☰ Sərbəst iş - Mövzular

Tədris ili: 2023 - 2024 | Tədris semestri: I semestr

| № | Qrupun adı | Dərsin növü | Tələbə sayı |
|---|---|---|---|
| 1 | Dünya ədəbiyyatı-10 | Mühazirə/Seminar | 1 |
| 2 | dünya ədəbiyyatı-2 | Mühazirə/Seminar | 1 |
| 3 | sosial-2709 | Mühazirə/Seminar | 5 |

Məlumat 1 - 3 / 3

- **Tədris ili –** burada müəllim ona lazım olan tədris ilini seçə bilər.
- **Tədris semestri –** burada müəllim ona lazım olan semestrı seçə bilər.

Müəllim siyahıda əks olunan istənilən qrupu seçməklə, həmin qrupun tələbələrinə sərbəst işi göndərə bilər və bu göndərilən sərbəst işlər uyğun olaraq hər tələbənin tələbə kabinetində əks olunmalıdır.




| № | Mövzunun adı | Tarix | Bal | Müəllim |
|---|---|---|---|---|
| 1 | 1 | 02.10.2023-27.10.2023 | 10 | Əməkdash Əməkdash Əməkdash |

| № | Mövzunun nömrəsi | Tələbənin ASA | Yekun bal | Göndərilmə tarixi | Qiymətləndirmə tarixi |
|---|---|---|---|---|---|
| 1 | 1 | y1 y1 y1 | 7/10 | 02.10.2023 15:53:25 | 02.10.2023 15:54:10 |

# SƏRBƏST İŞİN ƏLAVƏ EDİLMƏSİ

Düymələr panelində əks olunan mövzu artır düyməsi vasitəsilə müəllim seçilmiş tələbə üçün mövzu əlavə etmək imkanına malik olmalıdır. Müəllim seçilmiş fənn qrupu üzrə tələbələrə fərdi, komanda və ya qrup şəklində sərbəst iş əlavə edə bilər.

Açılan pəncərədə əks olunacaq sahələr:

- Mövzunun adı
- Sərbəst işin növü
- Tələbə
- Başlama tarixi
- Bitmə tarixi
- Bal

# UNUTMAYİN!

**ŞƏXSİ KABİNETƏ GİRİŞ ÜÇÜN İSTİFADƏ EDİLƏN ŞİFRƏNİ KƏNAR ŞƏXSLƏRLƏ PAYLAŞMA - ŞƏXSİ MƏLUMATLARA MÜDAXİLƏ RİSKİNİ ARTIRIR.**

**Belə olan halda məsuliyyəti müəllim daşıyır!**

# FAKÜLTƏLƏR və AİDİYYATI BÖLMƏLƏR ÜZRƏ İSTİFADƏÇİLƏR

| № | Soyad, ad | Vəzifə | Telefon |
|---|---|---|---|
| 1. | Məmmədov Rəşad Rüstəm | Pedaqoji fakültəsinin admini | 050 383 61 63 |
| 2. | Abbasov Rafiq Rövşən | Tarix - coğrafiya fakültəsinin admini | 070 818 57 54 |
| 3. | Abbasova Fəridə Rüfət | Xarici dillər fakültəsinin admini | 055 620 68 48 |
| 4. | Adıgözəlova Səbinə Dilqəm | İqtisadiyyat və idarəetmə fakültəsinin admini | 051 422 49 19 |
| 5. | Bağırova Məlahət Həbib | Tədris departamentinin admini | 051 912 50 80 |
| 6. | Bayramova Aytac Qənimət | Kimya – biologiya fakültəsinin admini | 070 598 88 79 |
| 7. | Quliyeva Reyhan Vilayət | Riyaziyyat-informatika fakültəsinin admini | 050 669 88 30 |
| 8. | Ələkbərova Ülviyyə İsrafil | Filologiya fakültəsinin admini | 055 836 48 92 |
| 9. | İsgəndərova Əntiqə Həssən | Fizika və texniki fənlər fakültəsinin admini | 055 843 76 81 |
| 10. | Mehdiyeva Rübabə Fizuli | Tədris departamentinin admini | 050 482 00 49 |
| 11. | Məmmədova Gülmira Əlistan | Qiyabi şöbənin admini | 051 866 46 44 |
| 12. | Qurbanova Nuranə Vaqif | Magistratura şöbəsinin admini | 055 679 61 79 |
| 13. | Ramazanova Günel Rza | İnsan resursları şöbəsinin admini | 055 907 15 05 |

# DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK!

Nigar Məmmədova
"Ultra Technologies" şirkətinin Biznes analitiklər Komandasının layihə rəhbəri

Xumar Mirzəyeva
"Ultra Technologies" şirkətinin proqram tətbiqi və dəstək komandasının analitiki

Aynur Ramazan q. Qasımova
Gəncə Dövlət Universiteti İnformasiya resurslarının formalaşması şöbəsinin müdiri
Telefon: +994 50 525 11 78